**ƏSMƏR ƏLİYEVA**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**Rəyasət Heyəti**
**bashirova116@gmail.com**

# AZƏRBAYCAN FOLKLORUNDA CİLDDƏYİŞMƏ KEÇİD MƏRASİMLƏRİ İLƏ BAĞLI FORMUL KİMİ

**Açar sözlər:** folklor, cilddəyişmə, keçid mərasimləri, çevrilmə
**Key words:** folklore, masking, transitional ceremonies, transformation
**Ключевые слова:** фольклор, маскировка, переходные церемонии, трансформация

Folklorda qəhrəmanın sehrli qüvvələrin təsiri ilə və ya sehrli vasitələrdən istifadə edərək öz xarici şəklini, görkəmini dəyişməsi cilddəyişmədir. Paltardəyişmədən fərqli olaraq cilddəyişmə mürəkkəb təfəkkürə əsaslanır. Cilddəyişmə nağıllarda daha çox ovsunla bağlıdır və sakral mahiyyət kəsb edir. Paltardəyişmədə olduğu kimi, cilddəyişmədə də çevrilməyə səbəb olan əsas amillərdən biri qəhrəmanın tanınmamaq istəməsidirsə, bu, digər tərəfdən, qəhrəmanın xeyirxahlığı, ağılı, ədalətliliyinə görə ona sehrli qüvvələr tərəfindən təqdim edilmiş bir mükafatdır.

Cilddəyişmə həm də keçid mərasimlərinə aid çevrilmə formuludur. Folklorda keçid mərasimləri özünü daha çox nağıllarda, dastanlarda, əfsanələrdə göstərir. Məlumdur ki, nağıl janrı üçün xarakterik olan xüsusiyyətlərdən biri süjet boyu qəhrəmanın problemlərlə qarşılaşıb mübarizə aparması və sonda muradına çataraq nağılın xoşbəxt sonluqla bitməsidir. Qəhrəmanın çıxdığı bu yolda rastlaşdığı maneələr, problemlər onun, əsasən, mənəvi cəhətdən dəyişməsinə səbəb olur ki, bu da keçid prosesi ilə özünü göstərir.

Keçid mərasimi nədir?

M.Ozan tədqiqatında göstərir ki, keçid mərasimi etnologiyaya aid anlayış olub A.Gennepin 1909-cu ildə nəşr olunan eyni adlı əsərinin mövzusunu təşkil edir. Keçid mərasimləri (fr. Les rites de passage) qəhrəmanın müxtəlif səpkilərdəki "sərhədi keçmə" hadisəsini və cəmiyyət içində statusunun dəyişməsindən bəhs edən və adət-ənənəyə, müəyyən qayda-qanuna bağlı olan ənənəvi və dini mərasimlərə verilən addır (10, 73). V.Gennep bu mərasimlərin üç mərhələdə reallaşdığını göstərir: ayrılıq mərasimləri, məkan dəyişməsi, eləcə də durum, hal dəyişməsindən bəhs edən mərasimlər və uyğunlaşma mərasimləri. Alim həmçinin qeyd edir ki, müxtəlif mədəniyyətlər və ictimai təcrübələr nəzərə alınarsa bu üç

mərhələnin bəzən eyni səviyyədə inkişaf etmədiyini və müxtəlifliklərin mövcud olması da zəruridir. Ayrılıq mərasimləri yas mərasimlərində, dəyişmə mərasimləri hamiləlik, nişan və sosial mühitə girişdən/qəbuldan bəhs edən inisiyasiya mərasimlərində, uyğunlaşma mərasimləri isə toy, xeyir işlə bağlı mərasimlərdə meydana çıxır. Bunların içində məkan və hal dəyişməsindən bəhs edən kosmik və sosial dünyadan bir başqa "dünyaya" keçidə işarə edən və "inisiyasiya" olaraq ifadə edilən giriş/qəbul mərasimləridir. İnisiyasiya xalq nağıllarında gizli göndərmələr (mesajlar) şəklində tez-tez qarşımıza çıxan və nağıllardakı ölüm hadisəsini fərqli bir müstəviyə daşıyan mühüm bir motivdir (10, 21).

Buradan aydın olur ki, alimə görə:

– Keçid mərasimləri üç mərhələdən ibarətdir: **ayrılma** (əvvəlki vəziyyətdən ayrılma), **keçid** (yeni vəziyyətə keçid) və **yeni vəziyyət**.

– Keçid mərasimləri folklorda (nağılda) müəyyən qədər dəyişik məna kəsb edir.

Bu hal təbiidir. Çünki real olaraq icra olunan keçid mərasimi ilə nağılda, dastanda təsvir olunan keçid mərasimi arasında, təbii ki, müəyyən fərqlər olacaqdır. Folklor mətnindəki keçid mərasimi artıq həmin mərasimin özü yox, onun folklor materialına çevrilmiş şəklidir. Yəni keçid mərasimi artıq süjetin müəyyən elementidir və burada o, epik poetikanın qanunlarına uyğun dəyişmişdir.

Elmdə keçid mərasimləri mənasında inisiasiya terminindən də istifadə olunur. M.Eliade inisiyasiyanı "simvolik ölüm və dirilmə vasitəsilə yetkinliyə çatmamış bir dövrdən yetkin insanın pilləsinə keçid" kimi səciyyələndirir (6, 245). M.Ozan yazır ki, "inisiyasiya" latınca "initium" terminindən yaranmışdır və başlanğıc, başlamaq, giriş mənalarını bildirir. "İnisiyasiya" söz olaraq "bir quruluşda içəri keçilən yer" mənasında olub, "keçid" sözü ilə sinonim təşkil edir (8, 74). Hartfiel Günter və Karl-Heinz Hilmanna görə, "İnisiyasiya şəxsin müəyyən olunmuş ənənəvi mərasimlərlə cəmiyyət içinə keçməsindən və ya özündən böyük gənclər arasına qəbul edilməsindən bəhs edir (9, 338).

Rus mifologiya lüğətində inisiyasiya sözü geniş mənada "şəxsin bir statusdan digərinə keçməsi", dar mənada isə "evlənmək yaşına çatmış gənclərin arasına keçid" olaraq izah edilir (5, 152). A.S.Tokarevin fikrinə görə isə, inisiyasiya mərasimi gəncə ovçu, döyüşçü həyatını, dözümlülüyü, möhkəmliyi və qayda-qanunu öyrədən bir növ fiziki və əxlaqi sınaqdır (5, 152). Q.A.Levinton yazır ki, inisiasiya fərdin bir statusdan o birisinə keçidi və bu keçidi formalaşdıran mərasim deməkdir (12, 543).

Verilmiş fikirlərdən aydın olur ki, inisiasiya/keçid fərdin bir mərhələdən başqa bir mərhələyə keçidini təşkil edən mərasimdir. Bu mərasimlər fərdin həyatında müəyyən mərhələnin başa çatması və yeni

mərhələyə keçməsi dövründə təşkil olunur. Məsələn, "Kitabi-Dədə Qorqud"da on altı yaşına çatmış fərd qəhrəmanlıq göstərib ad almalıdır. Bu qəhrəmanlığı göstərdikdən sonra ona advermə mərasimi təşkil olunur. Fərd bu mərasimdə sosial "adsızlıq" statusundan çıxaraq, bəylik statusu və adını alır. Bu cəhətdən inisiasiya mərasimi, əslində, çevrilməni təşkil edir. Burada bütün hallarda çevrilmə baş verir. Toy – subayın evliyə, yas – dirinin ölüyə çevrilməsini təşkil edir.

Nağıl mətnlərinə diqqət etdiyimiz zaman qəhrəmanın çıxdığı ölüm səfərinin keçid mərasimləri baxımından xüsusi yerə malik olduğunu görürük. Sınaq xüsusiyyəti daşıyan bu səfərdə qəhrəmanın başından keçən hadisələrin inisiyasiya mərasimlərindən nağıllara keçdiyi açıq şəkildə görünür.

Qeyd edək ki, keçid mərasimləri, xüsusilə, inisiyasiya (qəbul) mərasimləri üç mərhələdə gerçəkləşir: uzaqlaşdırma, vəziyyət/hal dəyişimi və uyğunlaşma mərhələsi. Biz nağıllarda bu mərhələləri "ayrılıq", "çətin dönəm", "evə qayıdış" olaraq görürük. Simvolik və tilsimli ölüm səfəri olaraq təqdim edilən bu mərhələ inisiyasiya mərhələlərində olduğu kimi, nağıllarda da qəhrəmanın kamilliyə, yetkinliyə keçməsinin ifadəsidir. Səfər zamanı ölümlə üz-üzə gələn qəhrəman yaşamaq və mübarizə aparmaq üçün bütün hünərlərini göstərir və bu prosesi uğurla yekunlaşdırmaq məcburiyyətindədir.

Nağıllarımızda qəhrəmanının sevdiyinə qovuşması üçün çıxdığı çətin yolda qarşısına çıxan çətinliklər onun ölümlə birbaşa təmasını əks etdirir. Qəhrəmanın ölüm həqiqəti ilə üz-üzə gəlməsi "ölüm diyarı"ndan, "ölümdən" keçməsi deməkdir. Bu müddət üç fərqli mərhələdə gerçəkləşir:

– nağıl qəhrəmanının axtarış səyahətinə çıxması;
– axtarış zamanı cild (don) dəyişdirməsi;
– ölümlə mübarizə edərək onu yenməsi.

Buraya sevdiyini axtarmaq üçün yollara düşən kişi və qadın qəhrəmanların səyahətindən bəhs edən nağılları aid edə bilərik. Bu cür nağıllarda ölüm diyarı qəhrəmanın cəsarətinin, ölümə qarşı dözümlülüyünün, mübarizliyinin yoxlanıldığı yerdir. Səyahət əsnasında qəhrəman kimsənin olmadığı məkanlardan keçərək ölümlə qarşılaşır, həmçinin qəhrəmanın bu diyarda rastlaşdığı canlılar qəribə görkəmli qorxunc varlıqlardır.

Keçid mərasimləri ilə bağlı baş verən cilddəyişmənin özünü göstərdiyi bariz nümunələrdən biri "Göyçək Fatmanın nağılı"dır. Beynəlxalq motivlərə uyğun gələn xalq nağılımızda baş verən cilddəyişmə keçid vəziyyəti ilə bağlıdır. Burada keçid/inisiasiya qəhrəman qarşısına çıxan çətinliklərin öhdəsindən gələrkən reallaşır. Bu isə A.Gennepin verdiyi üç mərhələyə tam uyğun gəlir.

**Ayrılıq mərhələsi.** Bu mərhələ nağılda analığı tərəfindən incidilən Fatma və qardaşının analığının istəyi ilə atası tərəfindən meşədə azdırılması

şəklində baş verir. Evlərindən, yaşadıqları kənddən uzaqda vahiməli, qaranlıq meşədə tək qalan uşaqlar bir çox çətinliklərin öhdəsindən gəlirlər, sonda bacısı Fatmanın mane olmasına baxmayan, bərk susayan balaca oğlan susuzluğa dözməyib qarşılarına çıxan bulağın suyundan doyunca içdikdən sonra qara bir inəyə çevrilir. Fatma inəyi qabağına salıb uzun yol gedəndən sonra evlərini tapmağa nail olur (4, 17).

Uşaqların kimsəsiz, vahiməli, vəhşi heyvanlarla dolu olan meşədə tək qalıb çətinliklərin öhdəsindən gəlməsi, əslində, cilddəyişməyə zəmin yaradan keçid prosesidir. Lakin cilddəyişmə sınaqlardan sağlam çıxdıqdan sonra baş verməlidir. Nağılda bu sınaqdan Fatma çıxsa da, qardaşı çıxa bilmir. Bu keçid prosesi qəhrəmanın dözümlülüyünü, mənəvi dayanıqlığını göstərir.

İnisiasiya prosesində ayrılma fərdin özünün köhnə durumundan həm məkan, həm də zamanca ayrılmasını tələb edir. Bu cəhətdən real olaraq icra olunan mərasimlərdə fərd olduğu məkandan tamamilə fərqli bir məkana köçürülür. Nağılda bu məkan meşədir. Meşə burada xaos, yəni o biri dünya ilə bağlıdır.

F.Bayat yazır ki, Azərbaycan sehrli nağıllarında o biri dünya özünün semantik mürəkkəbliyinə baxmayaraq, az ya çox dərəcədə sabit quruluşa malikdir. O, nağıl dünyasından (qəhrəmanın yaşadığı bu dünyadan – **Ə.Əliyeva**) sərhədlərlə (su, meşə, dağ və s.) ayrılır (11, 19).

Bu zaman sual yaranır: uşaqları nəyə görə xaos/ölüm dünyasını simvollaşdıran meşədə azdırırlar?

Bu, onunla bağlıdır ki, inisiasiya prosesində fərd ölüb-dirilmə prosedurundan keçir. Bunun üçün o, ölüm dünyasına daxil olmalı və orada yeni bir adama çevrilib qayıtmalıdır.

Göründüyü kimi, meşədə ilk olaraq Fatmanın qardaşı cildini dəyişərək inəyə çevrilir. Əslində, o, inəyə çevrilməməli, insan olaraq qalmalı idi. Lakin keçid mərasiminin şərtini pozduğu (qadağan olunmuş sudan içdiyi) üçün cildini dəyişir.

Fatmanın cilddəyişmə yolu ilə çevrilmə prosesi isə inisiasiya qaydalarına uyğun gedir. O, bir gün inəyi otardığı yerdə bərk yel əsir və külək onun yumağını aparıb bir evin bacasından içəri salır. Yumağının arxasınca gedən Fatma ev sahibi – bədheybət qarı ilə rastlaşır. Burada artıq durum, hal dəyişməsi özünü göstərir. O, qarının könlünü xoş edərək, evini səliqəyə salır, onun başındakı bit-birələri təmizləyir. Fatmanın bu hərəkətləri qarının könlünü xoş edir və o da qıza belə bir məsləhət verir: "Burdan gedəndə qabağına üç bulax çıxacax, birinin suyu dümağ, süd kimi, o birininki qapqara şəvə kimi, birinin də suyu qıpqırmızı lalə kimi. Ağ suda soyunub çimərsən, qara sudan da saçına, qaşına, kirpiyinə çəkərsən, qırmızı

sudan da yanaxlarına, dodaxlarına çəkərsən. Sonra gedib qara inəyin bir buynuzunnan yağ, birinnən də bal əməcəksən" (4, 18).

Bu parçanın təhlili göstərir ki:

– Fatma qarının rəhbərliyi altında cilddəyişmə yolu ilə yeni bir insana – ərə getməli qıza çevrilmə prosesindən keçir.

– Fatmanın bu cilddəyişməsi sırf keçid mərasimi ilə bağlı formuldur. Bunu bütün məkan-zaman şərtləri təsdiq edir.

– Fatmanın yanında olduğu qarı o biri dünyanın sakinidir. Bunu hər şeyin tərsinə olması təsdiq edir. O, bir qarı/qadın kimi təmiz olmaq əvəzinə – çirkin, səliqəli olmaq əvəzinə – pintidir.

– Fatma keçid prosesinin şərtlərinə düzgün əməl etdiyi, yəni o biri dünyada hər şey tərsinə olduğu kimi, o da tərsinə danışdığı, başqa sözlə, çirkin qarını yalandan təriflədiyi üçün cilddəyişmə yolu ilə çevrilə bilir.

– Keçid prosesində olan Fatma xaos məkanında əvvəlki görkəmindən (cildindən) çıxaraq yeni görkəm əldə edir.

Gördüyümüz kimi, düşdüyü yeni məkana uyğunlaşması və sınaqdan uğurla çıxması növbəti keçid prosesidir. Bundan sonra o göyçək Fatmaya çevrilərək günü-gündən kökəlir, gözəlləşir.

İnisiasiya mərasiminin ayrılma və keçid mərhələlərindən sonra axırıncı mərhələsi uyğunlaşmadır. Uyğunlaşma mərhələsi Göyçək Fatmanın düşdüyü hər məkana uyum yaradaraq çətinliklərdən çıxması və bütün bu keçid proseslərini uğurla davam etdirməsi nəticəsində baş verir. **Növbəti** cilddəyişmə padşah oğlunun toyuna gedərkən baş verir. Sehrli qüvvələrin köməyi ilə Göyçək Fatma çətin işin öhdəsindən gəlir, həmçinin gözəl libas, qızıl başmaq geyib padşah oğlunun toyuna gedir. Ən mühüm çevrilmə bu zaman baş verir. Toyda heç kəs onu tanımır.

Göyçək Fatma üçüncü mərhələdə kasıblıqdan, çətinliklərdən xilas olaraq padşah oğlu ilə evlənir. Üçüncü mərhələ eyni zamanda qəhrəmana verilən mükafatdır.

Keçid prosesi nəticəsində cilddəyişmə hadisələri Göyçək Fatmanın qardaşı və bacılığı olan keçəl Fatma obrazlarında da baş verir. Lakin onların keçid mərhələlərindən uğurla çıxa bilməməsi nəticənin müvəffəqiyyətsizliklə sonlanmasına gətirib çıxarır. Qardaşı yalnız əvvəlki vəziyyətinə (insan cildinə) qayıda bilir, Keçəl Fatma isə inisiasiyadan keçə bilməyərək elə keçəl olaraq qalır.

Hər üç keçiddə cilddəyişmə var və hər üçündə cilddəyişmə məhz keçid mərasimi ilə bağlı formuldur. Göyçək Fatma cilddəyişmə ilə yeni statusa (subaylıqdan evliliyə) keçir. Onun şərtlərə əməl edə bilməyən qardaşı cilddəyişmə ilə yalnız əvvəlki vəziyyətinə qayıda bilir. Fatmanın inisiasiya qaydalarını inkar edən bacısı isə cilddəyişmə ilə daha eybəcər duruma düşür.

Cilddəyişmənin keçid formulu ilə bağlılığını qəhrəmanların ölüm dünyasında olmaları da təsdiq edir. Belə ki, H.Beit qəhrəmanın yeraltı dünyasına etdiyi səyahəti "hades səyahəti" adlanır. Ölülər ölkəsi olaraq qəbul edilən yeraltı dünyası yunan mifologiyasında hades adlanır (7, 129-130).

Cilddəyişmənin keçid formulu olmasına biz "Gül Sənavərə neylədi, Sənavər gülə neylədi", "İskəndər", "Sehrli üzük" və s. kimi nağıllarda və "Koroğlu" dastanında da rast gəlirik.

"Koroğlu" dastanında Rövşənin Koroğluya çevrilməsi inisiasiya mərasimi vasitəsilə baş tutur və burada qəhrəman həm də cildini dəyişərək çevrilir. Keçid düşmənlə mübarizə aparan Rövşən atası ilə Çənlibeldə məskən saldıqdan sonra atasının tapşırığı ilə min bir əziyyətlə axtarıb tapdığı Qoşabulağın suyundan içəndən sonra baş verir. Rövşən bundan sonra əvvəlki gücündən, qüvvətindən, sadəliyindən çıxıb məğlubedilməz qəhrəmana, hər kəsi səsilə, nərəsilə valeh edən igidə, aşığa çevrilir. O, qollu-qüvvətli, boylu-buxunlu bir igid olmuşdu, pələ bığlarını qulaqlarının dalına kimi keçirirdi, misri qılınc belində, özü də Qıratın üstündə idi.

Koroğlunun görkəmini dəyişməsində nağıllarda olduğu kimi, burada da sehrli bulağın böyük rolu olur: "Oğul, buradakı dağların birində bir cüt bulaq var, adına Qoşabulaq deyərlər. Yeddi ildən yeddi ilə cümə axşamı məşriq tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib göyün ortasında toqquşarlar. Onlar toqquşanda Qoşabulağa nur tökülər, köpüklənib daşar. Hər kim Qoşabulağın suyundan içsə, aşıq olar. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, quşlar qanad salar, atlar, qatırlar dırnaq tökər... Rövşən o qədər gözlədi ki, axşam oldu. Gecədən bir xeyli keçdi. Bir də gördü ki, məşriqdən bir ulduz, məğribdən də bir ulduz doğdu. Ulduzlar gəlib düz Qoşabulağın üstündə toqquşdular. Ulduzların toqquşmasından Qoşabulaq daşdı. Ağ köpük adam boyu qalxdı. Rövşən köpükdən bir qab doldurub başına tökdü, bir qab da doldurub içdi...

– Bala, ay keçər, il dolanar, sənin adın məğribdən məşriqətən bütün dünyada məşhur olar. O köpükdən sənin qollarına qüvvət, özünə də şairlik verildi. Bir də sənin səsinə, nərənə elə bir qüvvət gələcək ki, İsrafilin suru onun yanında milçək vızıltısı olacaq. Bəylər, xanlar, paşalar sənin adın gələndə qorxudan diz çökəcəklər (2, 16).

Dastanda keçid prosedura uyğun olaraq üç mərhələdə baş verir:

1. Rövşənin öz atasının rəhbərliyi altında əvvəlki durumundan ayrılması: atası onu cəmiyyətdən uzaqlaşdıraraq yeni məkana – dağların qoynuna gətirir.

2. Rövşənin Qoşabulaqda qəhrəman durumuna keçidi: o da Göyçək Fatma bulağın suyu ilə adi qızdan gözəl qıza, yeniyetmədən ərgən qıza

çevrildiyi kimi, bulağın suyu ilə adi dəliqanlı igiddən yenilməz güc və qabiliyyətlərə malik qəhrəmana çevrilir.

3. Yeni durum: qəhrəman əvvəlki Rövşən olmaqdan çıxıb cəmiyyətə yeni statusda – Koroğlu kimi qayıdır.

Bütün bu keçid prosesi cilddəyişmə ilə müşayiət olunur: indi Koroğlu dəli nərəli, qollu-bədənli, zəhmli görkəmli, yekə bığlı, silahlı igid və əlində sazı olan aşıqdır. O, beləliklə, yeniyetmə igid oğlandan cilddəyişmə ilə aşığa və döyüşçüyə çevrilir.

"Şah İsmayıl" dastanında da cilddəyişmə keçid mərasimi ilə əlaqədardır. İllərlə övladı olmayan Ədil paşa pay verib, pay ummayan dərvişin verdiyi almanı yedikdən sonra Şah İsmayıl adlı oğlu dünyaya gəlir. Şah İsmayıl yeddi-səkkiz yaşına çatanda Ədil paşa o zamanın adətilə oğlunu zirzəmidə, qaranlıq otaqda saxlayır. Burada o, insanlardan, gün işığından uzaq yerdə mollalardan dərs alır, pəhləvan kimi böyüyür. On beş yaşına çatanda isə Ədil padşah onu zirzəmidən çıxardıb, özü ilə bərabər əyanlar məclisinə aparır (1, 125).

Şah İsmayılın qaranlıq zirzəmidə keçirdiyi zaman onun üçün keçid mərhələsi olur. Bundan sonrakı həyatında rastlaşdığı bütün maneələrin, mübarizələrin öhdəsindən asanlıqla gəlir, hətta sevdiyi Gülzar xanımın arxasınca ölümünü gözə alıb Türkmana yola çıxır (1, 143).

Sınaqlardan uğurla çıxmasının nəticəsində axırda mətləbinə çatır və taxt-taca sahib olur. Cilddəyişmə özünü onun uşaq görkəmindən çıxaraq igid görkəmi qazanmasında ifadə olunur. Burada zirzəmi inisiasiya mərasiminə uyğun olaraq ölüb-dirilmə aktının baş verdiyi yeraltı dünyanı – ölüm dünyasını simvollaşdırır.

V.Gennep də tədqiqatında göstərir ki, inisiyasiya çətin bir sınaq mərhələsidir. İnisiyasiyaya məruz qalan şəxs mövcud olduğu məkandan və sosial çevrəsindən uzaqlaşdırılaraq uzaq, yad, adətən, tərk edilmiş (meşəyə, qaranlıq otağa) kimsəsiz bir əraziyə aparılır. Şəxs burada ağır şərtlərlə gerçəkləşən sınaq nəticəsində bir növ mistik "ölümdən" keçərək "yeni" bir həyat, yaşam formasına girir. Əsas məqsəd isə mistik ölümü yaşayan qəhrəmanın ölüm həqiqətini dərk etməsi və ona qorxmadan yaxınlaşmağıdır. Bu düşüncənin kökündə olan həqiqət isə ölümün insana yeni bir həyat gətirməsinə dair əsas bir inancın hakim olmasıdır (10, 70-113).

"İskəndər" nağılında ağ div tərəfindən gözləri çıxarılan İskəndərin gözlərinin sağalmasının sirrini quşlar söyləyir. Onlar bir lələk və yarpaq verib uçurlar. İskəndərin tulası və yanındakı qızlar gözləri yerinə qoyub, yarpağı sıxıb gözlərinə damızdırdıqdan sonra onun gözləri oldu lap əvvəlki kimi (3, 185).

Bu həm də cilddəyişmə yolu ilə baş verən keçid mərasimidir:

– Ayrılma: qəhrəman öz əvvəlki məkanından (doğma yurdu) və durumundan ayrılır. O, divlərin məkanında görən insandan kora çevrilir.

– Keçid: Meşədə o, köhnə cildindən yeni cildə keçir, yəni kor insandan görən insana çevrilir.

– Yeni vəziyyət: İskəndər artıq əvvəlki adam yox, indi bütün çətinliklərdən çıxmağı bacaran qəhrəmandır.

İnisiasiyanın ikinci mərhələsi olan keçid mütləq "o biri dünyada" baş verməlidir. Real mərasimdə bu, təcrid olunmuş məkan şəklində gerçəkləşir. Nağılda isə bunun iki formasını görürük. Biri – divlərin məkanı. Divlər o biri dünyanın sakini olan varlıqlardır. İkincisi – korluq. Korluq folklorda o biri dünyanı simvollaşdırır. Kor olmaq – o biri dünyada olmaq deməkdir.

"Sehrli üzük" nağılında süjet boyu min bir əziyyətdən çıxan keçəl sehrli bulağın suyu sayəsində gözəl bir oğlana çevrilir. "Keçəl gördü yanında bir qəşəng bulax var ki, suyu dumduru göz yaşı kimi... Odu ki, paltarını soyunub özünü verdi bulağın suyuna, bir çala düzəldib doyunca çimdi. Sonra çıxıb qıraxda başladı suyunu dərməyə, əlini atdı ki, başını qurulasın, gördü əyə, başı teyzən tükdü. Özünə inanmadı, bir də əlini apardı saçına, gördü doğrudan da başına tük gəlib. Əyilib suda öz şəklinə baxdı, gördü nişanadan ötəri başında bir tük tapılmayan keçəlin başı tüknən doludu..." (4, 42).

Keçid bu nağılda da o biri dünyanı simvollaşdıran meşədə baş verir. Ən başlıcası, burada cildəyişmə keçidin əsas formuludur. O, keçəl olmaqdan çıxıb, normal insana çevrilir. Burada diqqəti bulaq cəlb edir.

Nağıllarda qəhrəmanı dəyişən bulaq sehrli bulaqdır. Daha doğrusu, bulağın suyu sehrli sudur. Nağıllarda bu su dirilik suyu, yaxud da abi-həyat adlanır. Bu sudan içən adam ölməzlik qazanır, onda çimən insan isə tamamilə yeni görkəm əldə edir.

Beləliklə, gətirilmiş nümunələr təsdiq edir ki, Azərbaycan epik folklorunda zəngin nümunələri olan cilddəyişmə həm də keçid mərasimləri ilə bağlı formuldur. İnisiasiya mərasimindən keçən fərd təkcə zahiri görkəmini dəyişmir, o, psixofizioloji baxımdan yenidən qurularaq yeni insana çevrilir. Bu zaman onun zahiri görkəmi (cildi) daxili yenilənməsini əks etdirir.

## Ədəbiyyat

1. Azərbaycan dastanları. Beş cilddə. III cild. Bakı: Lider nəşriyyat, 2005, 328 s.
2. Azərbaycan dastanları. Beş cilddə. IV cild. Bakı: Lider nəşriyyat, 2005, 464 s.
3. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 360 s.
4. Azərbaycan nağılları. Beş cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 304 s.

5. Duranlı M. Rus Bilim Adamlarının İnisiyasyonu (Geçiş Ritüelleri). Tanımlama Çalışmaları ve Saha Efsanelerinde İnisiyasyon / Mitten Meddaha Türk Halk Anlatıları. Uluslararası Sempozyum Bildirileri. Ankara: GÜ THBAUM Merkezi Yayınları 5, 2006, s. 151-162
6. Eliade M. Mitlerin Özellikleri. İstanbul: Om Yayınevi, 2001, 252 s.
7. Erhat A. Mitoloji Sözlüğü. İstanbul: Remzi Kitabevi, 1989, 375 s.
8. Ozan M. Geçiş Ritüelleri ve Halk Masalları // Milli folklor, Yıl 23, Sayı 91, 2011, s. 72-84.
9. Hartfiel Günter, Karl-Heinz Hilmann. Wörterbuch der Soziologie. Stuttgart: Alfred Kröner Verlag, 1982.
10. Van Gennep A. Übergangsriten (Les rites de passage). Frankfrurt/ New York: Campus Verlage, 2005
11. Гезалов Ф. Структура азербайджанских волшебных сказок / Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Тошкент, 1990, 23 с.
12. Левинтон Г.А. Очерк «Инициация и мифы» / Мифы народов мира. В 2-х томах. Том 1. Москва: Советская энциклопедия, 1982, с. 543-544

**Асмар Алиева**

## МАСКИРОВКА В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ, КАК ФОРМУЛА, СВЯЗАННАЯ С ПЕРЕХОДНЫМИ ЦЕРЕМОНИЯМИ

### Резюме

Маскировка в фольклоре это изменение героем своего внешнего вида, внешности под воздействием магических сил или с использованием магических средств. Маскировка также формула перемены относительно переходных церемоний. В фольклоре переходные церемонии проявляются больше всего в сказках, сагах, легендах. Известно, что одним из характерных для жанра сказки особенностей является то, что герой на протяжении всего сюжета встречается и борется с проблемами, в конце концов добивается своего и сказка заканчивается счастливым концом. Препятствия, проблемы, с которыми герой встречается на этом пути, способствуют в основном его изменению с моральной стороны и это проявляется в переходном процессе. Преобразование имел место в фольклоре каждого народа, в каждой эпохе и помогает нам формировать определенное мнение об их верованиях, культуре, мышлении. Зооморфические взгляды, формированные в мышлении наших предков в древности в результате поклонения животным, входя в фольклорные

тексты, дают ему предмет, функцию, мотив, и такие свойства как образность, символизированность и т.п. Преобразования, связанные с тотемистическими и анимистическими взглядами, встречаются в основном, в мифах, легендах, сказках, являющихся начальными формами Азербайджанского фольклора.

**Asmar Aliyeva**

**Masking in Azerbaijan folklore as a formula related to transitional ceremonies**

**Summary**

Masking in folklore is a change in hero's outward appearance realizing with the help of magical powers or by using magical methods. Masking is also a transformation formula for transitional ceremonies. In folklore transitional ceremonies are more common in tales, epics and legends. As you know, one of the characteristic features of the genre of tales is that the hero faces with the problems throughout the whole story, but at the end the hero always get success and the story ends with a happy ending. The obstacles and problems that the hero encounters on this path contribute mainly to his moral change and this is manifested in the transition process. Transformation existed in every nation’s folklore every period and helps us in expressing opinions on their beliefs, culture and thoughts. Zoomorphic thoughts formed on our ancestors` mental in the past as the result of worship on animals or plant give objective, functional, motivational, symbolizing and other features to folk texts. Transformations on totemic and animism thoughts widely used in myths, legends, and fairy tales which are considered the first forms of Azerbaijani folklore.

**Rəyçi: Seyfəddin Rzasoy**
**Ffilologiya elmlər doktoru, professor**